# Tarixin qanlı səhifəsi–20 Yanvar

***Bu günlərdə Azərbaycan xalqı 20 Yanvar faciəsi günlərini, həm də tariximizin qəhrəmanlıq səhifəsini bir daha xatırladılar və 23 il bundan əvvəl baş vermiş hadisə ilə əlaqədar redaksiyamıza onlarla məktub daxil oldu. Bu məktublar hər bir azərbaycanlının vətən sevgisini, azadlıq duyğularını bir daha özündə təcəssüm etdirir.***

***Belə məktublar redaksiyamıza hələ də daxil olmaqdadır. Bu sayımızda 20 Yanvar faciəsi ilə bağlı daha bir neçə məktubu dərc edirik.***

## Ədalət qalib gələcək

*"Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar.*
*Haqsızlığın üstündən haqqa körpü saldılar."*
**Bəxtiyar Vahabzadə.**

1990-cı il yanvarın 20-si Azərbaycan xalqının tarixinə Qanlı Yanvar Günü kimi həkk olunmuşdur. Süquta məhkum olunmuş sovet rejimi özünün son günlərində törətmiş olduğu cinayətlər sırasına bu dəhşətli faciəni də əlavə etmişdir.

Azərbaycanda siyasi hakimiyyətdə olanlar SSRİ rəhbərliyinin niyyətini dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaqda acizlik göstərdilər. Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi sayılan 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Çünki bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən o vaxtkı imperiyaya aydın şəkildə nümayiş etdirdi.

Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının varlığını bir daha dünyaya tanıtmaqla yanaşı SSRİ adlanan nəhəng imperiyanın çökməsində əsas amillərdən biri oldu. Bu hadisələr Azərbaycan xalqının əsrlər boyu imperiya müstəmləkəçiliyinə qarşı apardığı azadlıq və müstəqilliyinin davamı idi.

1990-cı il 20 Yanvarda Azərbaycan xalqına qarşı ağır cinayət törədilmişdir. Zirehli hərbi maşınlar xalqın üzərinə yeridilmişdir. Uşaqdan böyüyə kimi insanların qanı tökülmüşdür, insanlıq məhv edilmişdir, Bu amilə biganə yanaşılmışdır. Dünya ölkələri bu qanlı hadisəyə susmaqla cavab verirdilər.

XX əsr tarixində törədilən ən qanlı hadisələrdən biri olan 20 Yanvar faciəsinə siyasi qiymət ümummilli liderimiz Heydər Əliyev tərəfindən verilmişdir. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar.

Hər il olduğu kimi bu il də xalqımız bu tarixi günü qeyd edir. Eləcə də 20 Yanvar faciəsinə həsr olunmuş tədbirlər vətənimizin hər yerində olduğu kimi Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində də qeyd edilməkdədir. Şəhidlərin xatirəsinə həsr olunmuş guşə yaradılmış, muzeydə ardıcıl olaraq xatirə saatları, şəhid ailələri ilə görüşlər keçirilir. Keçirilən tədbirlər fonunda muzey kollektivi belə rəyə gəlmişdir ki, geci-tezi ədalət qalib gələcək, haqq iş öz yerini tutacaqdır. Tökülən qanlar yerdə qalan deyil. Vaxt gələcək işğal altında olan əzəli torpaqlarımız düşmən tapdağından azad olunacaq, şəhidlərimizin xatirəsini Xankəndində anım mərasimlərində yad edəcəyik.

**Həqiqət RÜSTƏMLİ,**
**rayon tarix-diyarşünaslıq muzeyi ekspozisiya və kütləvi iş şöbəsinin müdiri.**

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvarından artıq 23 il ötür. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun alfa qrupunun yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.

Bu qanlı hadisələrdən illər keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, bu faciəni törədənlərə öz dərin nifrətini bildirir. Xalqımızın qan yaddaşında əbədi yaşayacaq. 20 Yanvar faciəsini respublikamız hər il ümumxalq hüzn günü kimi geniş qeyd edir. Vətən şəhidlərini heç vaxt unutmayacaq 20 Yanvar Azərbaycan xalqının yıq. Budur bizim şəhidlərimiz qarşısında müqəddəs borcumuz.

Ruhunuz şad olsun! Sizin Azərbaycanın suverenliyi, müqəddəsliyi, azadlığı, firavan gələcəyi uğrunda axıtdığınız qan hədər getməyib.

Biz hər birimiz Şəhidlər xiyabanına gedərkən içimizdə xəfif titrəyiş hiss edirik. Ordan qayıdanda isə bu titrəyiş qürur hissi ilə əvəz olunur. Başqa cür ola da bilməz!

Qəbələ Rayon Mərkəzi Kitabxana Sistemində «20 Yanvar—Ümumxalq Hüzn Günü» başlığı altında keçirilən tədbirin iştirakçıları şəhidlərimizi xa-

## Millətə qarşı cinayət

hüzn və həm də şərəf günüdür. Xalqımız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər, eyni zamanda onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır. Çünki, vətən və millət şəhidləri ilə ucalır. 20 Yanvar faciəsi Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, mübarizliyini məhv edib sındırmaq məqsədini daşıyırdı. Ancaq mənfurlar buna nail ola bilmədilər.

Faciə törədildi, cünahsız insanlar şəhid oldular. Heç zaman unudulmayacaq o gündən illər keçməsinə baxmayaraq biz hər zaman ayıqsayıq, nikbin olmalıyıq. Nəyin bahasına olursa-olsun biz həmımız azadlığımızı qorumalı- tırlayaraq onların ruhunu bir dəqiqəlik sükutla yad etdilər. Tədbirdə unudulmayan o günlərdən fraqmentlər canlandırıldı, tarixi faktlardan danışıldı.

Günün əhəmiyyət və önəmini vurğulayan Qəbələ Mərkəzi Kitabxana Sisteminin direktoru R. Mirzəyev bu gün haqqında tarixi faktlarla danışdı. O qeyd etdi ki, bizim borcumuz bu faciə haqqında lazımi məlumatları gənclərə çatdırmaqdır.

Tədbirə qatılan MKS-nin metodik şöbəsinin müdiri M. Həsənov tədbirdə, gənc oxucuları qanlı Yanvar haqqında bilgiləndirmişdir.

**Xalidə MƏMMƏDOVA,**
**mərkəzi kitabxanın işçisi.**

## Şəhidlər anıldı

Vətən öz şəhidləri ilə ucalır. 20 Yanvar faciəsi bunu bir daha sübut etdi. Vətənin suverenliyi, müstəqilliyi, bütövlüyü uğrunda haq səsini ucaldaraq Bakının küçələrinə çıxmış soydaşlarımız düşmən gülləsinin qurbanlarına çevrildilər. Azadlıq yolunda canlarını fəda etdilər. Bu gün onların ölümündən 23 il keçir. Həmin dəhşətli gecədə doğulanların isə artıq 23 yaşı var. Biz, həmin müdhiş gecənin canlı şahidləri yeni nəslə bu faciəni hər an xatırlatmalıyıq. Onlara dostumuzun kim, düşmənimizin isə kim olduğunu başa salmalıyıq. Əsrlər keçdikcə unutqanlıqdan uzaqlaşmalı, əsl həqiqətləri meydana çıxarmalıyıq. Bu işdə nəinki yaşlı nəsl, həmçinin bu günkü gənclik də fəallıq göstərməli, təşəbbüskarlıq nümayiş etdirməlidir. Elə bu məramla da yaxın günlərdə Qəbələ şəhər 5 saylı tam orta məktəbində 20 Yanvar faciəsinin 23-cü ildönümünə həsr olunmuş tədbir keçirildi.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin oxunması ilə başlandı. Bir dəqiqəlik sükutla şəhidlərimiz anıldı. Tədbirin giriş hissəsini məktəb uşaq birliyinin rəhbəri Nəzakət Paşayeva açdı. Faciə haqqında şagirdlərə ətraflı məlumat verdi. Tədbirdə 20 Yanvar hadisələri ilə bağlı daha dəqiq və dürüst tarixi faktlarla məktəbin tarix müəllimi Tahir Məsimov çıxış etdi. Daha sonra məktəbin gənc tarix müəllimi Abgül Musayeva da şagirdlərə faciənin dəhşətləri haqqında epizodlar söylədi.

Tədbirin bədii hissəsində məktəbin şagirdləri 20 Yanvar faciəsinə həsr olunmuş şeirlər səsləndirdilər. VIII a sinif şagirdləri Fidan Yusifli "Ağla qərənfil, ağla", Türkanə Şərifli "Azərbaycan", VII a sinif şagirdi Gülsüm Quliyeva "20 Yanvar", V a sinif şagirdi Qəmər Quliyeva "Şəhidlər", V b sinif şagirdi Mədinə Rəhimova "Qanlı Yanvar", VII b sinif şagirdi Fidan Cavadlı "Qalx ayağa, Azərbaycan" şeirlərini söylədilər.

Tədbirin sonunda məktəbin direktoru Zərnişan Ağamirzəyeva çıxış edərək xalqımızın belə dəhşətli faciələrlə bir daha üzləşməməsini arzuladı.

**Sevinc AĞAYEVA,**
**məktəbin direktor müavini.**